# Qədim süfrə mədəniyyətimiz

Xaçmazda xalqımızın ən gözəl bayramı olan Novruz hər il öz rəngarəngliyi ilə yadda qalır. Bu il də belədir. Rayonun mədəniyyət ocaqlarında bir-birindən maraqlı tədbirlər keçirilir. Şəhərdəki Tarix-Diyarşünaslıq Müzeyində Novruz təbirləri çərçivəsində "Qədim süfrə mədəniyyətimiz" adlı geniş sərgi açılmışdır. Xaçmaz Regional Mədəniyyət və Turizm İdarəsinin təşəbbüsü ilə təşkil olunan sərgidə tamaşaçılara xalqımızın süfrə mədəniyyətini əks etdirən 300-dək məişət əşyası təqdim olunur. Bayram ərəfəsində açılan bu sərgi milli mətbəximizin, süfrə mədəniyyətimizin, mənəvi dəyərlərimizin təbliği məqsədini daşıyır.



Bu günlərdə sərginin açılış mərasimi keçirilmişdir. Mərasimi **Xaçmaz Regional Mədəniyyət və Turizm İdarəsinin rəisi Nazim Ağayev** açaraq regionda turizmin inkişafında sərginin mühüm əhəmiyyətə malik olduğunu bildirmiş, bu səpkili tədbirlərin digər rayonlarda da keçirilməsini tövsiyə etmişdir.

Sərgidə, həmçinin, iştirakçılara bədii özfəaliyyət kollektivlərinin ifasında milli rəqslər və süfrə mədəniyyətimizin təsvir olunduğu səhnəciklər təqdim olunmuşdur. Tamaşaçılar burada, həmçinin, qədim dövrlərdən bu günümüzə qədər gəlib çatan müxtəlif sənət nümunələri və məişət əşyaları ilə tanış olmuşlar. Sərgi ayın sonunadək davam edəcəkdir.

**Ziyafəddin BAYRAMOV,**
**"Respublika".**